**AZƏRBAYCAN RESPUBLİKASININ**

**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 57

**Bakı şəhəri** «23» iyul 2010 il

**"Rezidenturada həkim-mütəxəssislərin hazırlığının təşkili və tətbiqi haqqında"**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli 156 nömrəli Fərmanını rəhbər tutaraq və "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2010-cu il tarixli 50 nömrəli Qərarına əsasən rezidenturada yüksəkixtisaslı həkim-mütəxəssislərin hazırlığını təmin etmək məqsədi ilə və Dünya Bankının Səhiyyə Sektorunun İslahatlar layihəsi çərçivəsində beynəlxalq ekspertlərin dünya təhsil sistemində qəbul olunmuş təcrübəyə əsaslanan təkliflərini nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Baza ali tibb təhsili əsasında tutulmasına icazə verilən həkim vəzifələrinin siyahısı təsdiq edilsin (əlavə olunur).

2. Rezidenturada həkim-mütəxəssislərin hazırlığını aparan təhsil, elm müəssisələri və klinikalarının siyahısı təsdiq edilsin (əlavə olunur).

3. Rezidenturada ixtisaslar üzrə təhsil müddəti təsdiq edilsin (əlavə olunur).

4. Azərbaycan Tibb Universitetinin rektoru Ə.Əmiraslanova tapşırılsın:

4.1. Azərbaycan Tibb Universitetinin "müalicə-profilaktika", "pediatriya", "tibbi profilaktika" və "hərbi tibb" fakültələri üzrə 6 illik,

"tibbi biologiya" və "stomatologiya" fakültələri üzrə 5 illik baza ali tibb təhsili proqramlarında müvafiq dəyişikliklər aparılsın;

4.2. Səhiyyə Nazirliyinin 01.09.2008-ci il tarixli 119 nömrəli əmri ilə təsdiq edilmiş həkim ixtisas və vəzifələrin nomenklaturasına uyğun olaraq müvafiq tədris proqramları hazırlansın və təsdiq üçün 1 yanvar 2011-ci ilə qədər Səhiyyə Nazirliyinə təqdim edilsin.

5. Həkim-mütəxəssislərin hazırlığını aparan təhsil, elm müəssisələri və klinikalarda rezidentura təhsilinin təşkili məqsədi ilə Azərbaycan Tibb Universiteti və Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İ nstitutunun nəzdində 01.03.2011-ci il tarixədək rezidentura şöbələri yaradılsın, digər qurumlarda bu iş həmin müəssisələrin təşkilatı-metodik bölmələrinə həvalə edilsin.

6. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, respublikanın səhiyyə müəssisələrinə hər bir ixtisaslar üzrə həkim mütəxəssislərə olan ehtiyacı nəzərə almaqla 2011-ci ilin rezidenturaya qəbul planına dair Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim etmək məqsədilə 01.03.2011-ci il tarixədək təkliflər hazırlansın.

7. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, 2011-ci ilin səhiyyə büdcə layihəsinin tərtibi zamanı rezidentura təhsili ilə bağlı xərclərin nəzərdə tutulması təmin edilsin.

8. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
23. iyul 2010-cu il tarixli 57 nömrəli
əmri ilə təsdiq edilmişdir

**Baza ali tibb təhsili əsasında tutulmasına icazə verilən həkim vəzifələrinin siyahısı ***

***I. Müalicə işi təhsili əsasında***

Sahə həkimi - terapevt
Həkim - herontoloq
Həkim - diyetoloq
Həkim - laborant
Həkim – immunoloq
Həkim-infeksionist
Ailə həkimi
Həkim - mikrobioloq
Həkim - virusoloq
Həkim - ftiziatr
Həkim - psixiatr
Həkim - narkoloq
Həkim - fizioterapevt
Həkim - statistik
Həkim - metodist
Müalicə bədən tərbiyəsi üzrə həkim
Təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim

***II. Pediatriya təhsili əsasında***

Sahə həkimi - pediatr
Həkim - diyetoloq
Həkim - laborant
Həkim – immunoloq
Həkim-infeksionist
Ailə həkimi
Həkim - mikrobioloq
Həkim - virusoloq
Həkim - ftiziatr
Həkim - psixiatr
Həkim - narkoloq
Həkim-fizioterapevt

Həkim - statistik
Həkim - metodist
Müalicə bədən tərbiyəsi üzrə həkim
Təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim

***III. Tibbi-profilaktika işi təhsili əsasında***
Həkim – gigiyenist
Həkim - parazitoloq
Həkim - dezinfeksionist
Həkim -epidemioloq
Həkim-infeksionist
Həkim - mikrobioloq
Həkim - virusoloq
Həkim - laborant
Həkim - statistik
Həkim - metodist

***IV. Tibbi-biologiya təhsili əsasında***
Həkim - mikrobioloq
Həkim - virusoloq
Həkim - laborant

***V. Stomatologiya təhsili əsasında***
Həkim - stomatoloq
Həkim - statistik
Həkim - metodist

**** 2011-ci ildən etibarən ali tibb təhsilini bitirmiş şəxslərə şamil olunur***

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
23 iyul 2010-cu il tarixli 57 nömrəli
əmri ilə təsdiq edilmişdir

# Rezidenturada ixtisaslar üzrə təhsil müddəti

| № | İxtisasın adı | Təhsil müddəti |
|---|---|---|
| 1 | Ümumi cərrahiyyə | 5 il |
| 2 | Neyrocərrahiyyə | 5 il |
| 3 | Plastik cərrahiyyə | 5 il |
| 4 | Ürək-damar cərrahiyyəsi | 5 il |
| 5 | Uşaq cərrahiyyəsi | 5 il |
| 6 | Travmatologiya- ortopediya | 5 il |
| 7 | Onkologiya | 5 il |
| 8 | Urologiya | 5 il |
| 9 | Üz-çənə cərrahiyyəsi | 5 il |
| 10 | Mamalıq-ginekologiya | 5 il |
| 11 | Otorinolarinqologiya | 4 il |
| 12 | Nevrologiya | 4 il |
| 13 | Terapiya | 4 il |
| 14 | Kardiologiya | 4 il |
| 15 | Nefrologiya | 4 il |
| 16 | Qastroenterologiya | 4 il |
| 17 | Pediatriya | 4 il |
| 18 | Dermatovenerologiya | 4 il |
| 19 | Yoluxucu xəstəliklər | 4 il |
| 20 | Revmatologiya | 4 il |
| 21 | Hematologiya | 4 il |
| 22 | Endokrinologiya | 4 il |
| 23 | Şüa diaqnostikası | 4 il |
| 24 | Anesteziologiya -reanimatologiya | 3 il |
| 25 | Oftalmologiya | 3 il |
| 26 | Allerqologiya | 3 il |
| 27 | Fizioterapiya və tibbi bərpa | 3 il |
| 28 | Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza | 3 il |
| 29 | Şüa terapiyası | 3 il |
| 30 | Stomatologiya | 3 il |
| 31 | Sosial gigiyena və səhiyyənin təşkili | 3 il |
| 32 | Psixiatriya | 2 il |

| № | İxtisasın adı | Təhsil müddəti |
|---|---|---|
| 33 | Ftiziatriya | 2 il |
| 34 | İmmunologiya | 2 il |
| 35 | Narkologiya | 2 il |
| 36 | Gigiyena | 2 il |
| 37 | Mikrobiologiya | 2 il |
| 38 | Laboratoriya işi | 2 il |
| 39 | Genetika | 2 il |
| 40 | Epidemiologiya | 2 il |

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
13 iyul 2010-cu il tarixli 57 nömrəli
əmri ilə təsdiq edilmişdir

**Rezidenturada həkim-mütəxəssislərin hazırlığını aparan təhsil, elm müəssisələri və klinikaların siyahısı**

1. Azərbaycan Tibb Universiteti
2. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə Institutu
3. Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzi
4. Milli Onkologiya Mərkəzi
5. M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi
6. B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu
7. K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu
8. Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu
9. Kliniki Tibbi Mərkəz
10. Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi